**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***Əlyazması hüququnda***

**QADİR HAFİZ oğlu ƏZİZZADƏ**

# İRAN-ƏFQANISTAN MÜNASİBƏTLƏRİ (1979-2010-cu illər)

**İxtisas: 5502.01 – Ümumi tarix**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru, professor **S.T.HACIYEV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor **Q.Ə.ƏLİYEV**
Tarix üzrə elmlər doktoru **S.Ə.RÜSTƏMOVA-TOHİDİ**

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Ümumi tarix" kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyanın müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının "___" ______ 2017-ci il tarixli iclasında saat ___-da olacaqdır.

Ünvan: AZ-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "__" __________ 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor** **S.Y.SÜLEYMANOVA**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin sonları - XXI əsrin əvvəllərində İran və Əfqanıstanda cərəyan edən hadisələr həm bu ölkələr üzrə tədqiqatçı alimlərin, həm də bütün dünya ictimaiyyətinin diqqətini özünə cəlb etmişdir. ABŞ-da, Avropa və Asiya ölkələrində, keçmiş Sovet İttifaqında və bir sıra digər ölkələrdə fəaliyyət göstərən çoxsaylı siyasi tədqiqat mərkəzləri son onilliklər ərzində İran ilə Əfqanıstan arasında mövcud olan problemlərin öyrənilməsi və onların siyasi cəhətdən nizama salınması yollarının axtarışı ilə ardıcıl məşğul olmuşlar. Bu problemlərin həlli isə öz növbəsində İran-Əfqanıstan münasibətlərinin nizama salınması və daha da inkişaf etdirilməsi üçün zəmin yaradır.

Yaxın Şərqin böyük dövlətlərindən biri olan İran XX əsrin sonları və XXI əsrin əvvəllərində regionda ən fəal oyunçulardan birinə çevrilmişdir[1]. Qərbin İrana qarşı tətbiq etdiyi sanksiyaların aradan qaldırılması Əfqanıstana yatırılan İran investisiyalarının sayını və həcmini çoxaltdı. Tehran, nüvə sövdələşmələrindən sonra özü üçün təhlükənin azaldığını hiss edir. İran artıq Əfqanıstanda və ya Yaxın Şərqdə Qərb ölkələri ilə ikitərəfli və beynəlxalq əməkdaşlıqda iştirak edərək terrorizmə qarşı mübarizə aparır. Təsadüfi deyil ki, İran və ABŞ 2001-ci ildə Əfqanıstan üzrə Bonn sazişi danışıqlarında artıq əməkdaşlıq etmişdilər. Tehran ABŞ-ın sabiq dövlət katibi Con Kerriyə 2014-cü ildə Əfqanıstan Milli birlik hökumətinin formalaşdırılması məsələsində kömək etmişdi.

Qeyd etmək lazımdır ki, İranın xarici siyasətinin permanent təkamülü belə bir məsələni sübut edir ki, İran tərəfi aktual problemlər üzrə qlobal diskussiyalara cəlb olunmuş fəal beynəlxalq oyunçudur. Mahmud Əhmədinejatın İran prezidenti seçilməsi ilə onun "İyirmi illik perspektiv" konsepsiyası işə düşdü. Bu konsepsiyaya görə İran islam dünyasının lideri və yeni sivilizasiya mərkəzi olmağı planlaşdırır[2].

İranın xarici siyasət doktrinası bir neçə ideyanı sintez etmişdir. Bu ideyaları aşağıdakı şəkildə qruplaşdırmaq olar: regional lider statusuna nail olmaq (sonuncu İran şahı Məhəmməd Rza Pəhləvinin ambisiyalı vəzifəsi), iqtisadi praqmatizm (prezident Əli Əkbər Haşimi-Rəfsəncaninin

---

[1] Алиев А. Иран vs Ирак: история и современность. Москва: Изд-во МГУ, 2002, 463 с.

[2] Королев В. Кровь на Святой Земле. Москва: АСТ; Астрель, 2007, с. 229-231.

konsepsiyası), dünya iqtisadiyyatına ardıcıl inteqrasiya (prezident Seyid Məhəmməd Hatəminin ideyası). Bu ideyalar xarici siyasətin başlıca müddəası kimi islam formasında ideoloji əsas olmuşdur. Köhnə ideyaların sintezindən başqa, prezident M.Əhmədinejat İranın "Hücumçu diplomatiyasının" yeni prinsipini təklif etdi. Bu prinsipə görə, bütün dövlətlər məlum bərabər imkanlara və eyni vəziyyətlərə malikdirlər.

"Hücumçu diplomatiya" kursu regionda "şiəlik amilindən" və energetika diplomatiyasından istifadə etməklə Tehranın aktiv siyasətini nəzərdə tutur. İranın geosiyasi iddiaları bununla əsaslandırılır ki, müsəlman dünyasının coğrafi mərkəzi ərəb regionunda deyil, İran və Pakistanın sərhədində yerləşir. Məhz bu bölgənin qonşuluğunda yerləşən və bir sıra beynəlxalq problemlərlə sıx bağlı olan Əfqanıstan ilə münsibətlərin xarakterinin öyrənilməsi təkcə region ölkələri üçün deyil, beynəlxalq münasibətlər sistemi üçün də aktual əhəmiyyət kəsb edir.

İranda islam inqilabının qələbəsindən sonra Yaxın və Orta Şərqdə bərqərar olmuş geosiyasi vəziyyət soyuq müharibə dövründən prinsipial surətdə fərqlənirdi. Hazırda bu regionda gərginlik və hərbi münaqişə ocaqları yaranmışdır. Bu regionda aparıcı dövlətlərin geosiyasi və iqtisadi maraqları bir-birinə uyğun gəlmir. Bura elə bir regiondur ki, bir neçə min ildir ki, qarşıdurmalar, hərbi münaqişələr, Qərb ilə Şərqin qarşıdurmaları davam etməkdədir. Hazırda bu regionun partlayış təhlükəsi böyük olduğundan İranın qonşu ölkələrlə, xüsusilə Əfqanıstan ilə münasibətlərinin xarakterinin, əsas xüsusiyyətlərinin tədqiq olunması xüsusi elmi aktuallıq kəsb edir.

İran və Əfqanıstanın münasibətləri çoxsaylı yüksəlişlər və tənəzzüllər ilə müşayiət olunmuşdur. İslam inqilabının qələbəsindən sonra İranın və Orta Asiyanın qonşusu kimi Əfqanıstanın strateji mövqeyi öz əhəmiyyətini artırdı. Sovet qoşunları Əfqanıstandan çıxarıldıqdan sonra bu ölkədə təhlükəsizliyin təmin edilməsi və siyasi məsələlər üzrə İranın diplomatik fəaliyyəti daha da gücləndi. Tədqiqat işində bu məsələnin dərindən öyrənilməsi də mövzunun elmi aktuallığını artırır.

Tədqiq olunan dövrdə İran və Əfqanıstanda ictimai-siyasi və hərbi vəziyyət müntəzəm olaraq dəyişmişdir. Bütün bunlar iki ölkə arasındakı münasibətlərə ciddi təsir göstərmişdir. Bu dəyişikliklərdə həm daxili amillərin, həm də xarici amillərin mühüm rolu olmuşdur. Talibanın süqutundan sonra Əfqanıstanda milli birlik hökumətinin yaradılması məsələsində Tehran mühüm rol oynadı. Eyni zamanda İran-Əfqanıstan münasibətləri beynəlxalq terrorizmə qarşı hər iki ölkənin birgə mübarizəsi

şəraitində tədqiq olunur. Müasir dövrdə belə bir cəhət də dissertasiyanın aktuallığını artırır.

Ümumiyyətlə, Əfqanıstanda baş verən hadisələrdən elə bir ikinci dövlət yoxdur ki, İran qədər narahat olsun. Tehran hətta Vaşinqtondan da çox narahatçılıq keçirir. Bir şeyi unutmaq olmaz ki, İran, Birləşmiş Ştatlardan fərqli olaraq regiondan "çıxıb gedə bilməz" və bunu da özünə rəva bilməz. Bu amil Əfqanıstanın gələcək sabitliyi üçün mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən İranın Əfqanıstanın yenidən qurulması prosesində yaxından iştirakı, Tehranın Qərb ilə yaxınlaşmaq üçün çoxdan bəri axtardığı bir fürsət kimi dəyərləndirilməlidir.

Əfqanıstan yalnız fövqəldövlətlərin bu ölkəyə müdaxiləsi və onun İran üçün müvafiq nəticələri ilə əlaqədar olaraq İran siyasətçilərinin düşüncəsində böyük əhəmiyyət kəsb etməyə başladı. Sovet İttifaqının və ABŞ-ın Əfqanıstanda işğalçılıq siyasətləri və orada on minlərlə silahlı qüvvə yerləşdirmələri eyni zamanda 2 milyondan çox əfqan qaçqınının İrana pənah gətirməsinə səbəb oldu. Belə ki, böyük dövlətlərin hərbi təcavüzünə məruz qalmış müsəlman dövlətlərə qonşu ölkələrin, xüsusilə də müsəlman dövlətlərinin münasibəti və yardımı son onilliklər ərzində xüsusi əhəmiyyət kəsb edən məsələdir. Bu mənada İranın Əfqanıstan ilə münasibətləri xüsusi aktuallıq kəsb edir.

Əfqanıstan siyasi-təhlükəsizlik nöqteyi-nəzərindən İranın milli təhlükəsizliyi üçün böyük əhəmiyyətə malikdir. ABŞ-ın hərbi qüvvələrinin 2016-cı ilədək Əfqanıstanda qalması haqqında Kabul ilə razılığa gəlməsi İranın siyasi-təhlükəsizlik nöqteyi-nəzərindən əvvəlki kimi Tehranda narahatlıq doğurmaya bilməzdi. Bu, bir neçə səbəbdən irəli gəlirdi. Əvvəla, İran hesab edirdi ki, onillik müharibə, Əfqanıstanda qeyri-sabitlik və siyasi-etniki rəqabət üzündən Əfqanıstan dövləti zəif düşmüş və deməli, ABŞ-ın maliyyə və hərbi-təhlükəsizlik sahəsində yardımlarına möhtac olmuşdur. Hadisələrin bu cür inkişafı İranın bütün şərq sərhədi boyunca amerikan qüvvələrinin bilavasitə yerləşməsinə və iştirakına gətirib çıxarmışdır.

İran tərəfi həmişə və həm də xüsusilə iqtisadiyyat, mədəniyyət və ətraf mühit sahəsində Əfqanıstan ilə münasibətlərin inkişafına ciddi önəm vermişdir. İİR Prezidenti Həsən Ruhani bunları nəzərə alaraq vurğulamışdır ki, "İran öz qonşuları ilə, o cümlədən dost və qardaş Əfqanıstan ölkəsi ilə maraq doğuran bütün sahələrdə əlaqələri və münasibətləri tamamilə inkişaf etdirmək niyyətindədir". O, əlavə etmişdir ki, "İslam inqilabının

qələbəsindən sonra İran xalqı və onun hökuməti həmişə çətin və xoş günlərində əfqan xalqının yanında olmuşdur”[1].

Hər iki ölkənin bir-biri ilə sıx əməkdaşlığı inkişaf etdirməkdə maraqlı olmaları da dissertasiyanın aktuallığını artırır. Belə ki, Əfqanıstan üçün İranın əhəmiyyəti aşağıdakı amillərdən irəli gəlir: - Əfqanıstanın dənizə çıxışı üçün İran ərazisinin ən qısa yol olması, İran ərazisinin narkotik maddələrin Avropaya tranziti üçün qısa yol olması, İranın ucuz neft və təbii qazına Əfqanıstanda tələbatın yüksək olması, Əfqanıstanın Avropaya gedən yolda qapı rolu oynaması. Eyni zamanda İran üçün də Əfqanıstanın əhəmiyyəti aşağıdakı amillərlə sıx bağlıdır: Əfqanıstanda baş verən hadisələrin İranın daxili təhlükəsizliyinə güclü təsir etməsi, İranın Tacikistana çıxışı üçün Əfqanıstanın ən yaxşı marşrut olması, Əfqanıstanın ərazisində Səudiyyə Ərəbistanı və Pakistanın nəzarəti altında olan antiiran qrupların (müxalifətin), radikal təməlçi qruplaşmaların mövcud olması, İrana gələn su ehtiyatlarına Əfqanıstanda güclü tələbatın olması.

İranın Əfqanıstanda mühüm dövlət maraqlarının olması da mövzunun aktuallığını xeyli dərəcədə artırdı. Bu maraqları aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

- sərhəd məsələləri,
- narkotiklərə qarşı mübarizə məsələsi (dünyada istehsal olunan tiryəkin 90 faizi Əfqanıstanın payına düşür ki, bunun da yarısı tranzit ölkə kimi İrana göndərilir),
- su problemi (İranın quraqlıq şərq əyalətləri Gilmənd çayının suyundan istifadə edir),
- qaçqınlar məsələsi (onların bəziləri İran iqtisadiyyatına inteqrasiya olunmuşlar).
- Əfqanıstanda milli azlıqlar məsələsi,
- bəluc üsyançıları və s. məsələlər.

İran və Əfqanıstanda 1979-cu ildən etibarən ictimai-siyasi və hərbi vəziyyət müntəzəm olaraq dəyişmişdir. Bu dövr ərzində hər iki ölkədə dövlətçilik və ideologiya dəyişilmişdir. İranda vahid hakimiyyət yaradılsa da, Əfqanıstanda dəfələrlə dövlətçiliyin dəyişilməsi cəmiyyətin ictimai-siyasi həyatında dərin iz buraxmışdır.

---

[1] President: Tehran’s policy cementing ties with Kabul// IRI Ministry of Foreign Affairs//05.01.2016//en.mfa.ir

İran və Əfqanıstan cəmiyyətləri hələ də lazımi səviyyədə münasibətlərini dövrün tələblərinə uyğun olaraq qura bilməmişlər. Bunun daxili və xarici səbəbləri mövcuddur. Lakin Əfqanıstanda ictimai-siyasi vəziyyətin lazımi səviyyədə bərpa olunmaması İran-Əfganıstan münasibətlərinin inkişafına xeyli mənfi təsir göstərmişdir.

Digər tərəfdən özlərinin mürəkkəb daxili-siyasi vəziyyətləri ilə əlaqədar olaraq İran və Əfqanıstan müasir beynəlxalq münasibətlər sistemində xüsusi yer tuturlar. Bu problemin təhlili elmi, siyasi-tətbiqi və praktiki əhəmiyyətə malikdir. Bizim nöqteyi-nəzərimizə görə bu problem siyasi mənada da olduqca aktualdır.

Unutmaq olmaz ki, Əfqanıstan İslam Respublikasında (ƏİR) böhran beynəlxalq siyasətin ən mühüm problemlərindən biri olaraq qalır. Müasir mərhələdə Əfqanıstan daxili nizamasalma məsələsinin həll olunmaması ilk növbədə Əfqanıstan ilə həmsərhəd dövlətlər üçün təhlükə və qorxu yaradır. Bir sıra amillərin təsiri altında Əfqanıstan ilə kifayət dərəcədə sıx tarixi əlaqələrə malik olan və qonşu Əfqanıstanda əhəmiyyətli təsir potensialına malik olan ölkələrdən biri İran İslam Respublikasıdır.

1996-cı ilin sonunda Taliban Hərakatını (TH) təmsil edən radikal qüvvələrin Kabulda hakimiyyətə gəlişindən  sonra İranın bu yeni siyasi qüvvə ilə qarşılıqlı münasibəti kəskinləşdi. Taliblər, Əfqanıstanın milli əksəriyyəti olan puştunlara arxalanaraq hakim qüvvə roluna iddia edir, Əfqanıstanın əsasən taciklərlə, özbəklərlə, xəzər və türkmənlərlə məskunlaşan rayonlarını tabe etməyə  çalışırdılar.

İran Şimal alyansı qüvvələrini dəstəkləyirdi. Onun tanınmış siyasi rəhbəri, Əfqanıstanın sabiq prezidenti, etnik mənşəyinə  görə tacik olan Burhanəddin Rəbbani idi. Şiə-xəzərlərin hərbi məğlubiyyətinin ardınca İran öz səylərini "şimallıların" hərbi lideri, taliblərə effektli silahlı müqavimət göstərən Əhməd Şah Məsudun qüvvələrinə hərbi və maddi-texniki yardım göstərilməsinə cəmlədi.

İranın rəsmi hakimiyyəti və dünya birliyi tərəfindən tanınmamış Taliban hərəkatı arasında  qarşılıqlı münasibətlərdə daha ciddi gərginlik 1998-ci ildə yarandı. Taliban o zaman Əfqanıstanın şimalına iri miqyaslı hücuma başlayaraq Məzari-Şərifdə  İİR-in Baş Konsulluğunu ələ keçirdilər və iranlı diplomatların bir qrupunu qətlə yetirdilər. Bu cinayət uzun müddət İran tərəfindən Taliban  hakimiyyətinin qeyd-şərtsiz qəbul olunmamasının səbəblərindən biri idi. Bununla belə, artıq 1999-cu ilin fevral və noyabır aylarında yaranmış gərginliyi aradan qaldırmaq üçün iranlıların TH ilə məxfi danışıqları oldu.

ABŞ-da 11 sentyabr 2001-ci il hadisəsindən və ardınca Əfqanıstanda antiterror əməliyyatına başlanılmasından sonra Əfqanıstana münasibətdə İİR-iin xarici siyasət xəttinin prinsipcə yeni mərhələsi başlandı. Bu hadisələr dünya nizamında köklü dəyişikliklər etdi. Məhz o zaman beynəlxalq münasibətlərin yeni sisteminə keçid qeyd olundu. Eyni zamanda Yaxın və Orta Şərqin və Mərkəzi Asiyanın mühüm strateji regionlarında qüvvələr nisbətində köklü dəyişikliklər yaratdı. Bütün bunlar İranın regional siyasətini, o cümlədən əfqan istiqamətində də təbii surətdə dəyişdirdi.

İranın rəsmi hakimiyyəti ABŞ-da törədilmiş terrorçuluq aktlarını pislədi. İİR prezidenti Məhəmməd Hatəmi, İİR xarici işlər naziri Kamal Hərrazi və İİR Ali Milli Təhlükəsizlik Şurasının katibi Məhəmməd Ruhani öz bəyanatlarında amerika xalqına başsağlığı verdilər və beynəlxalq birliyi terrorizmə qarşı mübarizədə qəti tədbirlər görməyə çağırdılar.

İranda islahatçı yönümlü mətbuat orqanları əsas diqqətlərini terrorizmin pislənilməsinə və təəssüf hisslərinin ifadəsinə yönəltmişdilər. Amma mühafizəkar mətbuat orqanları son illərdə beynəlxalq arenada ABŞ-ın siyasətini pislədi və nəticədə onun 2001-ci il sentyabrın 11-də törədilmiş terrorçuluq aktına səbəb olduğunu qeyd etdi.

Əfqanıstanda milli birlik hökuməti formalaşandan sonra ölkədə yenidənqurma və demokratikləşmə prosesi başladı. Əfqanıstan və beynəlxalq birlik arasında formalaşan tərəfdaşlıq ilə paralel Əfqanıstanın beynəlxalq münasibətləri də köklü dəyişikliyə məruz qaldı. Taliban rejiminin süqutundan sonra əfqan hökuməti özünün beynəlxalq birlik ilə münasibətlərini möhkəmləndirmək üzrə aktiv siyasət yeritməyə başladı. Belə bir siyasətin mahiyyətinin açılması məhz dissertasiya mövzusunun qarşısında duran vəzifələrdən biridir.

Hazırda hər iki ölkə beynəlxalq münasibətlər sistemində özlərinin mürəkkəb daxili-siyasi vəziyyətləri ilə xüsusi yer tuturlar. Bu problemin təhlili elmi, siyasi-tətbiqi və praktiki əhəmiyyətə malikdir. Həmçinin bizim nöqteyi-nəzərimizə görə bu problem siyasi mənada da olduqca aktualdır.

**Dissertasiyanın xronoloji çərçivəsi.** Dissertasiya işi xronoloji cəhətdən 1979-2010-cu illəri əhatə edir. İranda şahlıq quruluşunun devrilməsi və İran İslam Respublikasının yaranması ilə nəticələnən 1978-1979-cu illər inqilabı ölkə həyatında keyfiyyətcə yeni bir mərhələnin başlanğıcını qoydu. Eyni zamanda Əfqanıstanda 1979-cu ildə baş vermiş və ölkənin Sovet qoşunları tərəfindən işğalı ilə nəticələnən qanlı hadisələr də bu ölkənin siyasi həyatında mühüm bir mərhələnin başlanğıcı oldu. Digər tərəfdən 1979-cu il

həm İran, həm də Əfqanıstan üçün iki müxtəlif siyasi iqtidarın meydana çıxdığı dövrdür. Yəni bu dövrdən etibarən iki ölkə arasında münasibətlər yeni prinsiplər əsasında qurulmağa başladı. 2010-cu ildə artıq Əfqanıstanda yeni hakimiyyət yaranmışdır. Tehran amerika işğalı nəticəsində yaranmış və Talibana qarşı mübarizə şəraitində formalaşan Əfqanıstan İslam respublikası ilə keyfiyyətcə yeni münasibətlər qurdu.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti kimi 1979-2010-cu illərdə İran və Əfqanıstan arasında münasibətlərin qurulması, siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsiprosesi seçilmişdir.

Tədqiq olunan dövrdə iki ölkə arasında siyasi əlaqələrin qurulmasını zəruri edən amillər, bu münasibətlərə təsir göstərən daxili və xarici amillər, böyük dövlətlərin Əfqanıstanda iştirakının İran-Əfqanıstan əlaqələrinin inkişafına mənfi təsir göstərməsi, Əfqanıstan iqtisadiyyatının bərpasında İranın texniki-iqtisadi yardımı, humanitar köməyi, qarşılıqlı ticarət əlaqələrinin genişləndirilməsi, maarif, təhsil və mədəniyyətin digər sahələrində əlaqələrin əsas cəhətləri tədqiqatın əsas predmetini təşkil edir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Tədqiqat mövzusu ilə əlaqədar bir sıra dillərdə xeyli sayda elmi məqalə və əsərlər nəşr olunmuşdur. Azərbaycan tarixşünaslığında bu mövzuda ayrıca kitab çıxmasa da, bəzi müəlliflər bu və ya dolayı yolla İran-Əfqanıstan münasibətlərinə toxunan məqalələr yazmışlar. Azərbaycan tarixşünaslığında bu mövzuda görkəmli şərqşünas, professor H.Əlibəylinin monoqrafiyalarını göstərmək olar [1]. Bu monoqrafiyalar Əfqanıstanda cərəyan edən hərbi-siyasi proseslərin, bu ölkənin xarici siyasətinin əsas cəhətlərinin mahiyyətinin üzə çıxaran, aydınlaşdıran mühüm qaynaqlardır. Düzdür, bu monoqrafiyalar bizim tədqiqat dövrümüzdən əvvəlki periodu özündə əks etdirsə də İranın müasir xarici siyasətinin köklərinin öyrənilməsi baxımından lazımlı və mötəbər mənbə rolunu oynayırlar.

Həmçinin İranın qonşu ölkələrlə münasibətlərinin öyrənilməsində Azərbaycan Respublikasının XİN-yi tərəfindən hazırlanmış 6 cildlik "Heydər Əliyev və Şərq" kitabının İran İslam Respublikasına həsr edilmiş

---

[1] Алибейли Г.Дж. Основные проблемы внешней политики Афганистана (1946-1966 гг.). Москва: Наука, 1979, 208 с.; Иран и сопредельные страны. Москва: Наука, 1989, 267 с.

ikinci cildi də əhəmiyyətli rol oynamışdır[1]. İranın xarici ölkələrlə münasibətlərinin öyrənilməsində Əli Həsənovun[2], Musa Qasımlının[3] kitablarını qeyd etmək yerinə düşərdi.

Tədqiqatçı-alim Məsiağa Məhəmmədinin yazmış olduğu monoqrafiyasında 1978-ci il aprel çevrilişindən XXI əsrin əvvəllərinə qədər Əfqanıstanda və onun ətrafında baş verən hadisələrdən bəhs olunur[4]. Orada yeri gəldikcə İranın Əfqanıstanda baş verən hərbi-siyasi proseslərə də münasibəti qısa şəkildə öz əksini tapmışdır.

Həmçinin Azərbaycan müəlliflərindən Atamoğlan Məmmədlinin "Taliban hakimiyyəti illərində İran-Əfqanıstan əlaqələri" adlı məqaləsini qeyd etmək olar[5]. Məqalədə Taliban dövründə iki ölkə arasındakı münasibətlərdə yaranmış prblemlər və onların qarşılıqlı münasibərlərə mənfi təsiri öz əksini tapmışdır.

Tədqiq olunan problemlə bağlı hadisələri bu və ya digər dərəcədə özündə əks etdirən iranlı müəlliflər tərəfindən də bir sıra elmi əsərlər, kitab və monoqrafiyalar, elmi məqalələr yazılmışdır. Elmi məqalə və monoqrafiyaların əksəriyyətində İranın xarici siyasətindən bəhs olunsa da, həmsərhəd ölkələrlə münasibətlərinin mövcud vəziyyətinə də aydınlıq gətirilir. Iranlı tədqiqatçı doktor Seyid Cəlaləddin Mədəninin iki cildlik "Müasir İranın siyasi tarixi" adlı monoqrafiyası İranda islam inqilabının qələbəsinə aparan yollar, 2.500 illik səltənətin devrilməsi və onun xarabalıqları üzərində yeni islam cümhuriyyətinin qurulmasını işıqlandırması baxımından əhəmiyyət kəsb edir. Monoqrafiyanın ikinci cildinin sonuncu fəslində islam inqilabının qələbəsi və yeni islami dəyərlərə söykənən xarici siyasət prinsiplərinin bərqərar olması qələmə alınmışdır.

---

[1] Heydər Əliyev və Şərq. 6 cilddə. İran İslam Respublikası, II kitab. Bakı: Ozan, 2002, 450 s..

[2] Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərnəşr, 2005, 752 s.

[3] Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). Bakı: Mütərcim, 2015, 648 s.

[4] Məhəmmədi M. Əfqanıstan. Sovet işğalından amerika müdaxiləsinə. Bakı: SAM, 2017, 220 s.

[5] Məmmədli A. Taliban hakimiyyəti illərində İran-Əfqanıstan əlaqələri / BDU-nun 90 illik yubileyi münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. Tarix və onun problemləri, Bakı: 2009, № 3, s. 300-307.

Qonşu dövlətlərə münasibət də burada öz əksini tapmışdır[1]. Lakin müəllif əsərdə həmsərhəd ölkələrlə münasibətlərin əsas cəhətlərini təhlil etmir və qarşılıqlı əlaqələrə mənfi təsir göstərən amilləri təhlil etmir.

Oliviye Roanın fars dilində Tehranda nəşr olunmuş monoqrafiyasında İran İslam Cümhuriyyətinin xarici siyasət məsələlərinə toxunulur. Eyni zamanda Əfqanıstanın işğala məruz qalması, orada islam müqavimət hərəkatının formalaşması, mübarizə üsulları haqqında məlumat verilir. Lakin dini amillər qabarıq verilsə də, iqtisadi amillərin rolu geniş verilmir[2].

İran tədqiqatçılarından Doktor Mənuçöhr Məhəmmədi Tehran universitetinin hüquq və siyasi elmlər fakültəsində dərs deyir. Onun "İran İslam Cümhuriyyətinin xarici siyasəti: üsul və vasitələr" adlı monoqrafiyasında İranda islam inqilabının qələbəsindən sonra onun xarici siyasətinin formalaşmasından bəhs olunur. Qonşu ölkələrə münasibətdə xarici siyasətin üsul və vasitələrindən söhbət açılır. Burada da dini amillərin rolu qabarıq verilir[3].

İİR XİN-nin Beynəlxalq Münasibətlər İnstitutun dosenti Məhəmməd Rza Dehşiri və Tehran universitetinin dosenti Məhəmməd Rza Məcidinin birlikdə qələmə aldıqları "İnqilabdan sonrakı dövrdə İranın xarici siyasəti: bütöv yanaşma" adlı məqalədə son 30 il ərzində İİR-in xarici siyasətinin təkamülündəki meyllərin aydınlaşdırılmasına cəhd göstərilir. Bunun üçün müəlliflər İranın xarici siyasətinin nəzəri əsaslarının və prinsiplərinin sabitliyinin təmin olunması, regional və beynəlxalq şəraitin dəyişkənliyi nöqteyi nəzərindən öz görüşlərini irəli sürürlər.

Maraqlı cəhət burasındadır ki, onlar aydınlaşdırmağa çalışırlar ki, artıq İranın xarici siyasət təcrübəsi son illər hansı cəhətdən beynəlxalq münasibətlərdə müstəqil kursun formalaşmasına və imperialist dövlətlərin ağalığı olmadan qaydalar işləyib hazırlamağa kömək edə bilər. Hansı ki,

[1] تابستان، فرهنگی الدین جلال سید نوشته -معاصر ایران سیاسی تاریخ کتاب
520 ص -1375- قبل تهران، انتشارات، ،

[2] در Rua Eliviya. Eslame Təcrobeگی فرهنگی و سیاسی سیاست .ا ز مرکز مطالعات بین
شماره الهدی، انتشارات تهران، ،-1378المللی

[3] تهران، .محمدی منوچهر دکتر نوشته – ایران اسلامی جمهوری در خارجی سیاست کتاب
208ص ،1388 انتشارت،

bunlar inkişaf etməkdə olan ölkələrin milli milli müstəqilliyinə kömək edə bilər[1].

İranlı müəlliflərin elə əsərləri də vardır ki, orada bu və ya digər dərəcədə İran-Əfqanıstan münasibətlərinin müxtəlif cəhətləri tam və ya qismən işıqlandırılmışdır. Bu cəhətdən tədqiqatçı

Nasir Əndişənin "Əfqanıstanın xarici siyasətində bitərəflik" adlı məqaləsi xüsusi maraq doğurur[2]. Məqalədə qeyd olunur ki, Əfqanıstan 1989-cu ildə Sovet qoşunlarının ölkədən çıxarılmasından, 1992-ci ildə sonuncu kommunist rejiminin süqutundan, həmçinin 1992-1996-cı illər ərzində Kabulda Mücahidlər hökumətinin fəaliyyətindən sonra rəsmən Bitərəflik hərəkatına üzv olmuşdur. Əgər vətəndaş müharibəsinin cərəyan etdiyini və hakimiyyət bölgüsünün pis aparıldığı nəzərə alınsa, ölkədə müstəqil xarici siyasət yeritmək üçün heç bir real imkanın olmadığı ortaya çıxar. Bunun ardınca gələn Taliban rejimi (1996-2001) isə daha çox ideoloji hərəkat idi, nəinki daxili və xarici siyasətə malik olan hökumət idi. Müəllif həmçinin Talibanın xarici siyasətə malik olmaması barəsində qərb müəlliflərindən Oliver Royun da fikrini misal gətirir.

İranlı tədqiqatçı Əlirza Nadirinin İranın Əfqanıstana təsirindən bəhs edən əsərində İranın Əfqanıstanda tarixi maraqları və bu ölkədə onun cari siyasəti nəzərdən keçirilir. Tədqiqat İran-Əfqanıstan münasibətlərinin başlıca cəhətlərinə, o cümlədən İranın Əfqanıstan ilə mədəni, siyasi, iqtisadi və ideoloji əlaqələrinə xüsusi diqqət yetirilir. Əsərdə İranın Əfqanıstana təsirinin dərəcəsi və hüdudları, o cümlədən başlıca əfqan qruplaşmaları və dairələri ilə İranın münasibətləri nəzərdən keçirilir[3].

Lakin yaxşı olardı ki, müəllif İran-Əfqanıstan münasibətlərini nəzərdən keçirən zaman Sovet İttifaqı ilə ABŞ-ın bu ölkədə həyata keçirdikləri siyasətin və bundan irəli gələn amillərin Tehran ilə Kabil arasındakı münasibətlərin inkişafına göstərdiyi mənfi təsirlərini də qabarıq verəydi.

---

[1] Dehshiri M.R. and Majidi M.R. Iran"s Foreign Policy in Post-Revolution Era: A Holistic Approach./The Iranian Journal of International Affairs. Vol.XXI? #.1-2: 101-114, Winter-Spring 2008-9, (p.101).

[2] Nasir A. Andisha. Neutrality in Afghanistan's Foreign Policy//US Institute of Peace/Special Report 360/www.usip.org.

[3] Iran's Influence in Afghanistan Implications for the U.S. Drawdown Alireza Nader, Ali G. Scotten, Ahmad Idrees Rahmani, Robert Stewart, Leila Mahnad.

Tədqiqatçı Şaram Əkbərzadə İran ilə Əfqanıstan arasındakı münasibətlərə həsr etdiyi məqalədə 2001-2012-ci illərdə Tehranın Kabula münasibətdə fəaliyyətini təhlil edir. Bu dövrdə İranda hakimiyyət dəyişikliyi baş vermişdi. 2005-ci ildə Mahmud Əhmədi Nejatın prezident kürsüsünə yiyələnməsi elita arasında siyasi mühafizəkarlığın ağalığını əks etdirdi. Əhmədi Nejat höküməti ABŞ-a münasibətdə daha radikal mövqe tutdu[1].

İranlı tədqiqatçılar Maqsud Rəncbərin və Əbülqasim Oveysi Kahkahın qələmə aldığı məqalədə İran ilə Əfqanıstan arasında siyasi münasibətlər nəzərdən keçirilir. Məqalədə Sistan əyalətinin su ilə təchizatı və Gilmənd çayının su ehtiyatlarının bölgüsü məsələlərinin iki ölkə arasındakı münasibətlərə təsiri məsələsi öyrənilir. Onlar belə bir elmi nəticəyə gəlirlər ki, iki ölkə arasında geniş əlaqələr üçün müsbət amillərin mövcud olması ilə yanaşı hələ də münasibətlərin inkişafı yolunda bir neçə problem və maneçiliklər mövcuddur[2].

Beynəlxalq münasibətlər və İranın xarici siyasəti üzrə görkəmli alim Aniş Ehteşani "İranın xarici siyasəti" adlı məqaləsində təsdiq edirdi ki, "İnqilabi İran həmişə klassik realizm formasında rasional oyunçu olmuşdur. Hətta onun bəzi hərəkətlərinə çətin şəraitlərə hesablanmış risklər və cavablar kimi də baxmaq olar"[3].

İranın seçim uğrunda rasional düşüncə prosesini qeyd edən iranşünas tədqiqatçı Keyhan Barzegar təsdiq edir ki, "İranın xarici siyasətinin kökləri və məqsədləri müdafiə, praqmatikdir və əsasən dövlətin strateji məsələlərinin həllinə yönəldilmişdir"[4].

İranlı tədqiqatçılardan bəziləri islam inqilabından sonra İranın xarici siyasət məsələlərini təhlil edirlər. Onlardan biri Məhəmməd Rza Dehşiridir.

---

[1] Shahram Akbarzadeh. İran`s Policy towards Afghanistan. In the Shadow of the United States//Journal of Arian Security and International Affairs, I, I (2014).

[2] Maghsud Ranjbar and Ablghasem Oveisi Kahkha. Examining Political Relationship between Iran and Afghanistan by Fcus on Sistan//Interdisciplinary Journal of ContemporaryResearch in Business/July 2014, vol.6? #3.

[3] Ehteshami. A. (2002.p.284). The Foreing policy of Iran. In Hinnebusch.R.,and Ehteshami.A.(eds), The Foreing policies of Middle East States (pp.283-310). Boulder,CO;Lynne Ricnner.

[4] Barzegar, K. (2008). İran`s foreign policy in post-invarion İraq. Middle East Policy, 15(4), (pp. 47-58).

O, İran Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Beynəlxalq Münasibətlər Məktəbində dosent vəzifəsində çalışır.

İran-Əfqanıstan münasibətlərinə dair əfqan müəlliflərinin əsər və məqalələri də dissertasiyanın yazılmasında mühüm mənbə və istinad rolunu oynamışdır. Lakin bu sahədə əfqan müəlliflərinin tədqiqat və monoqrafiyalarının az sayda olmasına baxmayaraq, yeri düşdükcə onlardan da dissertasiyanın yazılmasında, bu prosesdə ortaya çıxan fikir və mülahizələrin elmi cəhətdən əsaslandırılmasında həmin məxəzlərə tez-tez müraciət etməli olmuşuq. Belə əfqan müəlliflərindən biri Əbuzər Pirzadə Qəzvinidir [1] . O, Kabul universitetinin yetirməsidir. Əfqanıstanda qurulankommunist rejimi dövründə elmi yaradıcılığa başlayan Ə.P.Qəzvini "Müasir Əfqanıstanın siyasi tarixi" adlı monqrafiya yazdı. 1970-1980-ci illərdə Əfqanıstanda cərəyan edən hadisələr, hərbi-siyasi proseslər, dini müxalifətin ölkə daxilində və onun xaricində fəaliyyəti, Əfqanıstanda kommunistpərəst rejimə qarşı onların mübarizəsi öz əksini tapmışdır.

İrandakı mühacir əfqan şair və yazıçılarından biri olan Ağayi Məhəmmədkazem Kazemi "İran və Əfqanıstanın mədəni cəhətdən yenidən qurulması" adlı məqaləsində Əfqanıstanın İran üçün nəyə görə mühüm əhəmiyyət kəsb etdiyinə cavab axtarır. Sonra isə daha bir sual qoyur: "İran Əfqanıstan üçün nə edə bilər? Müəllif bu suallara subyektiv baxışlarını ortaya qoyur. O, İrandakı mühacirlərin də bu prosesdə oynadıqları rola toxunur[2].

Başqa bir tədqiqatçı Brenda Şafer isə belə bir nöqteyi-nəzəri daha kəskin ifadə edir: "Dövlətin, xüsusilə hakim rejimin maddi maraqları İranın xarici siyasətinin seçilməsində üstün determinant rolunu oynayır"[3].

Uzun zaman Yaxın Şərq və İranın xarici siyasəti üzrə elmi araşdırmalar aparmı tədqiqatçı-alim Süzanna Meloni "İran özünəməxsusluğunun dini tərkibinin inkar edilməsinin və ya təhlükəsinin şişirdildiyi" haqda xəbərdarlıq edir. Beynəlxalq münasibətlər və İranın xarici siyasəti üzrə

---

[1] 17. قزوين نی پ ريزاد ابوذر نويسنده افغانستان معاصر سياسی تاريخ کتاب -
تشارات انتشارات موسسه ان، عرفان، تهران 1393، - 499 ص.

[2] چاپ -.افغانستان فرهنگی بازسازی و ايران . -کاظمی محمد - نويسنده نامه روز
تابستان 38، شماره صبح، روزهو تهران، .آسيا و قفقاز مرکز خارجه وزارت دفتر
1381، ص109- 134

[3] Shaffer, B. (2006). The İslamic Republic of İran: Is it really? In Shaffer,B.(ed.), The limits of culture: Islam and foreign policy (pp.219-239). Cambridge, MA: The MIT Press.

görkəmli alim Aniş Ehteşamni təsdiq edir ki, “inqilabi İran həmişə klassik realizm formasında rasional oyunçu olub. Hətta onun bəzi hərəkətlərinə çətin şəraitlərə hesablanmış risklər və cavablar kimi baxmaq olar”[1].

Xarici siyasət məsələləri üzrə mütəxəssis G. Ross qeyd edir ki, Tehranda xarici siyasət seçiminə əsəbi vəziyyətdə “mövqelər uğrunda mübarizə” kimi də baxmaq olar[2].

İranın qonşu ölkələrlə münasibətlərinin xarakterinə toxunan digər bir iranlı tədqiqatçı Keyhan Barzeqar öz məqaləsində dövlətin strateji maraqlarını daha qabarıq verir. İranın xarici siyasət sahəsində seçim uğrunda rasional düşüncə prosesini qeyd edən Keyhan Barzegar təsdiq edir ki, “İranın xarici siyasətinin kökləri və məqsədləri müdafiə, praqmatikdir və əsasən dövlətin strateji məsələlərinin həllinə yönəldilmişdir”[3].

Başqa bir iranşünas Brenda Şafer də öz əsərində bu nöqteyi- nəzəri daha kəskin ifadə edir: “dövlətin, xüsusilə hakim rejimin maddi maraqları İranın xarici siyasətinin seçilməsində üstün determinant rolunu oynayır”[4].

Uzun zaman Yaxın Şərq və İranın xarici siyasəti üzrə elmi araşdırmaları ilə tanınmış tədqiqatçı-alim Süzanna Meloni isə “İranın özünə məxsusluğunun dini xarakterinin, tərkibinin inkar edilməsinin və ya onun doğurduğu təhlukənin şişirdildiyi” haqda xəbərdarlıq edir[5].

Bəzi qərb müəllifləri belə hesab edirdilər ki, beynəlxalq koalisiyaya daxil lan hərbi qüvvələrin əksəriyyətinin Əfqanıstandan çıxıb getməsi ölkədə daha böyük qeyri-sabitliyə gətirib çıxara bilər ki, bundan da İran kimi xarici dövlətlər istifadə edə bilərlər.

---

[1] Maloney, S. (2002). Identity and change in Iran`s foreign policy. In Telhami, S,, and Barnett,M.(eds), Identity and foreign policy in the Middle East (pp.88-116). London: Cornell University Press.

[2] Rose, G. (1998, p.149). Neoclassical realizm and theories of foreign policy. World Politics, 51(1), 144-172.

[3] Barzegar, K. (2008). İran`s foreign policy in post-invarion İraq. Middle East Policy, 15(4), (pp. 47-58).

[4] Shaffer, B. (2006). The İslamic Republic of İran: Is it really? In Shaffer,B.(ed.), The limits of culture: Islam and foreign policy (pp.219-239). Cambridge, MA: The MIT Press.

[5] Maloney, S. (2002). Identity and change in Iran`s foreign policy. In Telhami S., and Barnett M. (eds), Identity and foreign policy in the Middle East (pp.88-116). London: Cornell University Press.

Rus müəlliflərindən tədqiqatçı Aleksandr Knyazev öz məqaləsində İranın Əfqanıstana münasibətdə yeritdiyi siyasətində əsasən üç amilin nəzərə çarpdığını qeyd edir. Birincisi, Əfqanıstanın qərb vilayətlərində Tehranın təsirini gücləndirilməsi; ikincisi, ABŞ-a və Qərbə qarşı birlikdə hərəkət etmək məqsədilə Kabulun timsalında özünə potensial müttəfiq axtarılması; Üçüncüsü, ABŞ-ın ehtimal olunan hücumu ilə əlaqədar Əfqanıstan sərhədi boyunca bufer zona yaradılması[1].

2013-cü ildə Moskvada buraxılmış elmi külliyatda Mahmud Əhmədi Nejat dönəmində İranın daxili və xarici siyasət məsələlərinə həsr olunmuş məqalələr yer almışdır. Külliyatda müasir İranın daxili-siyasi problemləri, ölkə rəhbərliyinin iqtisadi və mədəni siyasəti, xarici dövlətlərlə münasibətləri, onun sosial inkişafının ayrı-ayrı cəhətləri təhlil olunur. Orada həmçiçinin İİR-in xarici siyasət kursunun əsas meylləri, hər şeydən əvvəl Amerika-İran istiqaməti və "ərəb baharı" ilə əlaqədar təmayüllər tədqiq edilir. Bu məqalələrdə türk ekspertlərinin fikir və mülahizələri də öz əksini tapmışdır[2].

Türk müəlliflərindən doktor Barış Adıbellinin kitabında[3] qısa şəkildə də olsa İran-ABŞ münasibətləri fonunda Əfqanıstan məsələsinə də toxunur. Lakin müəllif Əfqanıstan-İran münasibətlərini geniş təhlil etmir. Halbuki bu problem İran-ABŞ münasibətlərinə təsir göstərən ən mühüm amillərdən biridir.

Türkiyəli tədqiqatçı Əli Heydər Şənyurdun qələmə aldığı məqalədə İranın Əfqanıstan üzərində artan təsirindən bəhs edir. Müəllif qeyd edir ki, Talibanın 2001-ci ildə ABŞ tərəfindən devrilməsi və Kabulda möhkəmlənməsi ilə İran üçün bir təhlükə digəri ilə əvəz olundu. O, daha sonra Əfqanıstanda baş verən daxili çəkişmələrə münasibətdə İranın mövqeyinin özünəməxsus xarakter kəsb etdiyini göstərir. O, belə bir nəticəyə gəlir ki, İran Talibandan sonra Kabul üzərində özünün təsirini

---

[1] Alexander Knyazev. Avrasyanın Büyük Güçlerinin Mevcut Afqanistan politikaları: Rusiya, Çin, Hindistan ve İran // Orta Doğu Analiz. Temmuz-Ağustos 2011, cilt:3, sayı: 31-32, s.74-82.

[2] Иран при М.Ахмадинежаде. (Отв.ред. Н.М.Мамедова). Москва: ИВ РАН., 2013, 220 с.

[3] Barış Adıbelli. İran. Doğu-Batı yol ayrımında. İdeoloji, Devlet ve Dış Politika. Kayhan Matbaacılık, İstanbul, 2012, 334 s.

artıraraq Əfqanıstanda ən önəmli xarici aktorlardan birinə çevrilmişdir[1]. Digər türk müəllifləri – Armağan Kuloğlu və Sercan Doğanın fikrincə, Tehran, Talibanın ölkə içərisində yaşayan şiə azlığına qarşı təqib siyasəti yeritməsi və belə bir vəziyyətin nəticəsində 1979-cu ildə Sovet işğalından sonrakı proseslərə bənzər bir şəkildə Əfqanıstandakı şiə qruplarının İrana köç etməsi qorxusu idi[2].

**Mənbəşünaslıq bazası.** Dissertasiya mövzusunun tədqiqi zamanı ədəbiyyatın və müxtəlif yönümlü qaynaqların düzgün seçilməsi də həmçinin böyük əhəmiyyətə malik olmuşdur. Belə ki, ilk növbədə İİR Xarici İşlər Nazirliyinin rəsmi sayt (www.mfa.gov.ir), xüsusi bülletenlərindən və həmçinin Əfqanıstan Xarici İşlər Nazirliyinin rəsmi saytında (www.mfa.af/en) yer almış materiallardan, hər iki ölkənin hökumət və dövlət başçılarının nitq və çıxışlarından, müxtəlif nazirliklərin rəsmi bülletenlərindən və saytlarından yeri gəldikcə istifadə olunmuşdur. Həmçinin İranda və Əfqanıstanda çapdan çıxmış bir sıra ədəbiyyatlardan və qaynaqlardan istifadə olunmuşdur. Həmçinin müxtəlif dərgilərdə və məcəllələrdə də xeyli sayda məqalə və müsahibələr ilk dəfə dövriyyəyə cəlb olunmuşdur. Əsasən rus və ingilis dillərində çoxsaylı məqalələr vardır ki, yeri gəldikcə onlardan da faydalanmışıq.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında əsas məqsəd 1979-2010-cu illərdə İran ilə Əfqanıstan arasında baş vermiş münasibətlərin siyasi, iqtisadi və mədəni tərəfləri ilə əlaqədar məsələləri nəzəri cəhətdən əsaslandırmaqdan, bu dövr ərzində Tehranın Kabula yönəlik siyasətinin formalaşması prosesi fonunda iki ölkə arasındakı münasibətlərin kompleks təhlilini verməkdən ibarətdir.

Eyni zamanda Əfqanıstanın da İrana münasibətdə siyasətinin formalaşması prosesi fonunda tədqiq olunan dövrdə iki ölkə arasındakı münasibətlərin kompleks təhlilindən ibarətdir. Qarşıya qoyulmuş məqsədlərə yetişmək üçün aşağıdakı vəzifələrin həll edilməsi zəruridir:

---

[1] Ali Haydar Şenyurt. İranın Afganistan Üzerindeki Artan Nüfuzu//10 Haziran 2013 http://www.bilgesam.org.

[2] Armağan Kuloğlu, Sercan Doğan, Afganistan ve Pakistan□da Yaşanan Gelişmeler ve Uluslararası Güvenliğe Etkileri, Ortadoğu Stratejik Araştırmalar Merkezi (ORSAM), The Black Sea International Rapor No:7, Mart 2011, 154-155, http://www.orsam. org.tr/tr/trUploads / Yazilar/Dosyalar /201258_7 tumrapor. pdf27.08.2012].

- İİR-in şərq siyasətinin, xüsusilə qonşu Əfqanıstana münasibətdə yeritdiyi xarici siyasət kursunun mahiyyətinin açılması;

- müxtəlif hakimiyyətlər dövründə Əfqanıstana münasibətdə İranın siyasətinin formalaşmasına əsas amillərin (siyasi, iqtisadi, mədəni) təsir dərəcəsini təhlil etmək;

- Əfqanıstanın dəyişən siyasi proseslər çərçivəsində İrana münasibətinin əsas xüsusiyyətlərinin nəzərdən keçirilməsi;

- İran-Əfqanıstan iqtisadi əlaqələrinin əsas cəhətlərinin nəzərdən keçirilməsi;

- qarşılıqlı mədəni əlaqələrin inkişaf xüsusiyyətlərinin təhlil edilməsi.

**Tədqiqatın nəzəri-metodoloji əsasını** İranın Əfqanıstana münasibətdə yeritdiyi siyasətə onun təkamülündə baxmağa imkan verən tarixilik prinsipi ilə, həmçinin öyrənilən dövrdə iki ölkə arasındakı münasibətlərin inkişafına təsir göstərən çoxsaylı real amillərin nəzərə alınmasını tələb edən elmi obyektivlik prinsipi təşkil edir.

Dissertasiyanın işlənilib hazırlanması prosesində sistemlilik prinsipi də tətbiq edilmişdir ki, bu da İran-Əfqanıstan münasibətlərinin əsas müddəalarının öyrənilməsi əsasında cari tarixi prosesin müəyyən qanunauyğunluğunu üzə çıxarmağa imkan verir. Bu prinsiplərə əməl olunmasını tədqiqatın müqayisəli- tarixi metodunun istifadəsi şərtləndirir.

Həmçinin dissertasiyanın yazılmasında tarixi tədqiqatın təsviri-hekayə, bioqrafik və retrospektiv metodlarından istifadə olunmuşdur.

**Dissertasiyanın elmi yeniliyi.** Dissertasiya işi problemin qoyuluşu, onun təhlili və elmi nəticələri ilə Azərbaycan tarix elmində İran-Əfqanıstan münasibətlərini (1979-2010-cu illər) əsas cəhətlərini, xüsusiyyətlərini, tarixini mühüm sənədlər və elmi materiallar əsasında obyektiv və kompleks şəkildə araşdıran ilk tədqiqat işidir. Dissertasiyanın elmi yeniliyi aşağıdakı müddəalardan ibarətdir:

- İranda islam inqilabından sonra 2010-cu ilə qədər olan dövrdə Əfqanıstana münasibətdə İİR-in siyasətinin təkamülü göstərilmişdir;

- İİR-in mövcud olduğu dövr ərzində İran-Əfqanıstan münasibətlərinin inkişaf prosesi ilk dəfə kompleks şəkildə tədqiq olunmuş və elmi dövriyyəyə daxil edilmiş, bu prosesə təsir göstərən amillər aşkar edilmiş, ikitərəfli qarşılıqlı münasibətlərin inkişafının müxtəlif mərhələlərinə onların təsirinin dərəcəsi öyrənilmişdir;

- Tədqiq olunan dövrdə İran-Əfqanıstan münasibətlərinin inkişafında əsas problemlərin müəyyənləşdirilməsi.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Tədqiqat işi 1979-2010-cu illərdə İran-Əfqanıstan münasibətlərinin əsas cəhətlərinin öyrənilməsi baxımından mühüm elmi-praktik əhəmiyyətə malikdir. Tədqiqatın elmi nəticə və müddəalarından iki ölkə arasındakı münasibətlərin əsas mahiyyətinin açılması üçün istifadə edilə bilər. Bu baxımdan tədqiqat işi həm maariflənmə vəsaiti, həm də elmi istinad mənbəyi kimi əhəmiyyət kəsb edir. Dissertasiya işi Orta Şərqdə cərəyan edən hadisələrin, İran və Əfqanıstan tarixinin, iki ölkə arasındakı münasibətlər tarixinin öyrənilməsində, həmçinin hər iki ölkənin müasir tarixinə dair dərslik, dərs vəsaiti və monoqrafiyaların hazırlanmasında yardımçı ola bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Asiya və Afrika ölkələri tarixi kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas müddəaları və elmi nəticələri iddiaçının elmi-nəzəri, elmi-praktik konfranslardakı çıxışlarında, Azərbaycanda və xarici ölkələrdə nəşr olunan məqalələrində öz əksini tapmışdır. Dissertasiya işi Asiya və Afrika ölkələri tarixi kafedrasında müzakirə olunmuş və müdafiəyə tövsiyə edilmişdir.

**Dissertasiya işinin strukturu.** Dissertasiya giriş, üç fəsil, səkkiz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ÜMUMİ MƏZMUNU

**“Giriş”**də mövzunun aktuallığı əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası müəyyənləşdirilmiş, elmi yeniliyi, əməli-təcrübi əhəmiyyəti verilmişdir.

Dissertasiyanın birinci fəsli **“İran-Əfqanıstan siyasi əlaqələrinin inkişafı”** adlanır. Bu fəslin “İİR ilə Əfqanıstan arasında dilomatik münasibətlərin yaranması” adlanan birinci yarımfəslində İranda 1979-cu il islam inqilabından sonra yaranmış İİR-in prinsipcə yeni xarici siyasət xəttinin müəyyənləşdirilməsi, Tehranın qonşu ölkələrə, xüsusilə Əfqanıstana münasibətdə müəyyən etdiyi kurs, regionda təsir dairəsi uğrunda mübarizə aparan böyük dövlətlərin təzyiqləri altında İran-Əfqanıstan diplomatik münasibətlərinin qurulması təhlil olunur, qarşılıqlı münasibətlərə müsbət və mənfi təsir göstərən amillər üzə çıxarılır, İranın şərq siyasətində Əfqanıstanın oynadığı mühüm rolu zəruri edən amillərə aydınlıq gətirilir.

Birinci fəslin ikinci yarımfəsli “Sovet işğalı dövründə İran-Əfqanıstan münasibətləri” adlanır. Bu yarımfəsildə Əfqanıstanın Sovet işğalına məruz

qalmasının İran-Əfqanıstan münasibətlərinə göstərdiyi mənfi təsiri, Kabildə qurulmuş sovetpərəst rejimlə Tehran arasında ideoloji və siyasi zəmində gərginliyin, böhranlı halların yaranması, bu işğalın məntiqi nəticəsi kimi bir sıra hərbi-siyasi, iqtisadi, humanitar, xüsusilə əfqan qaçqınları probleminin yaranması məslələri təhlil olunur.

Birinci fəslin üçüncü yarımfəsli "Taliban hakimiyyəti illərində İran-Əfqanıstan əlaqələri" adlanır. Bu yarımfəsildə sovet işğalından sonra vətəndaş müharibəsinin ağır fəsadlarını yaşayan Əfqanıstanda hakimiyyətin Taliban qüvvələri tərəfindən silahlı yolla ələ keçirilməsi, ölkədə dini və etnik zəmində yaranan münaqişənin İran-Əfqanıstan münasibətlərinə mənfi təsirləri təhlil olunur, humanitar fəlakətin daha da güclənməsi və bunun qarşılıqlı əlaqələrə təsiri qeyd olunur, böyük dövlətlərin əfqan probleminə qarışması və Talibana qarşı beynəlxalq koalisiyanın yaranması məsələləri təhlil edilir. İranın Taliban hakimiyyəti illərində Əfqanıstana münasibətinin əsas cəhətləri açılıb göstərilir.

Birinci fəslin dördüncü yarımfəsli "ABŞ-ın Əfqanıstanı işğalının İran-Əfqanıstan əlaqələrinə təsiri" adlanır. Bu yarımfəsildə 2001-ci il 11 sentyabr terror hadisəsindən bəhanə kimi istifadə edən ABŞ başda olmaqla beynəlxalq koalisiya qüvvələri tərəfindən Əfqanıstanın işğalı və Taliban hakimiyyətinin devrilməsi, ölkədə yaranmış yeni hərbi-siyasi vəziyyət, belə bir vəziyyətin Tehran-Kabil münasibətlərinə təsiri, yeni şəraitdə Əfqanıstan ətrafında beynəlxalq müzakirələrə İranın cəlb olunması, onun mövqeyinin nəzərə alınması ilə həyata keçirilən tənzimlənmə prosesi təhlil olunur.

Dissertasiyanın ikinci fəsli **"İran-Əfqanıstan iqtisadi-ticarət əlaqələrinin inkişafı"** adlanır. Bu fəslin I yarımfəsli "İki ölkə arasında iqtisadi əlaqələrin əsas cəhətləri" adlanır. Bu yarımfəsildə İranın Əfqanıstanda iqtisadi maraqları, enerji ixracı və Fars körfəzi regionundan Çinədək bütün Asiya üzrə tranzit ticarəti marşrutu kimi Əfqanıstanın rolu təhlil olunur. Eyni zamanda Əfqanıstan üçün İranın əsas enerji tədarükçülərindən biri olması qeyd olunur. Eyni zamanda İranın həm dövlət xətti ilə, həm də özünə yaxın olan səhra komandirləri və Əfqanıstanın qərbində yaşayan tayfa başçılarının köməyi ilə, həmçinin iqtisadi yardım göstərmək yolu ilə bu ölkədə öz mövqelərini möhkəmləndirmək səyləri təhlil olunur.

Həmçinin bu yarımfəsildə Əfqanıstanda antiterror əməliyyatın həyata keçirilməsi, Talibanın hakimiyyətdən devrilməsi nəticəsində Əfqanıstanda nisbi siyasi sabitliyə nail olunması, sonra isə ən mühüm vəzifə kimi onun iqtisadiyyatının bərpası məsələləri təhlil olunur. Hökumətlərarası birgə

komissiyanın fəaliyyəti qeyd olunur, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, enerji, nəqliyyat, hərbi və müdafiə sahələrində qarşılıqlı əlaqələr təhlil olunur. Həmçinin İranın Əfqanıstana göstərdiyi maliyyə yardımlarının istiqamətləri araşdırılır. İranın qonşu ölkədəki iqtisadi fəaliyyətinin təhlili zamanı yolların, körpülərin, enerji obyektlərinin tikintisi, kənd təsərrüfatı, səhiyyə, kommunikasiya və digər sahələrin bərpası diqqət mərkəzində dayanır.

Əfqanıstanın iqtisadi cəhətdən bərpasında İranın göstərdiyi yardımlar təhlil olunan zaman belə bir nəticəyə ortaya çıxır ki, ölkənin bir sıra əyalətlərində irriqasiya və su kəmərlərinin bərpası üzrə işlərin həyata keçirilməsi, toxum fondunun yaradılması və gübrələr göndərilməsi, mütəxəssislər hazırlanması bu sahədə mühüm addımlar olmuşdur. Tehran, Kabul ilə əlaqədar öz maraqlarını həm ikitərəfli zəmində, həm də regional təşkilatlar və beynəlxalq layihələr çərçivəsində, xüsusilə də donor və iqtisadi yardım formasında həyata keçirmişdir. Yarımfəsildə qeyd olunur ki, əfqan iqtisadiyyatının bərpa olunmasında və inkişafında İranın əhəmiyyəti təkcə donor yardımının ayrılmasında özünü göstərmir, həm də konkret iqtisadi layihələrin həyata keçirilməsi ilə xarakterizə olunurdu. Bərpa dövrünün ilk başlanğıcından İran öz vəsaitlərini digər ölkələr kimi təkcə humanitar əməliyyatlara yönəltmədi, əksinə, əsasən sənayenin, kənd təsərrüfatının infrastruktur sahələrin, ilk növbədə qərb əyalətlərinin – Herat, Fərəh və Nimruzun iqtisadi cəhətdən çiçəklənməsinə yönəltdi.

İkinci fəslin ikinci yarımfəsli “İkitərəfli ticarət əlaqələrinin inkişaf xüsusiyyətləri” adlanır. Burada İranda islam inqilabının qələbəsindən sonra qonşu Əfqanıstanla münasibətlərdə yeni mərhələnin başlanması, bu münasibətlər çərçivəsində qarşılıqlı ticarət əlaqələrinin inkişaf etdirilməsi məsələləri təhlil olunur. Qeyd olunur ki, 1999-cu ilin sonunda Tehran tərəfindən sərhədboyu ticarəti fəallaşdırmaq üçün Əfqanıstan ilə sərhədi açması qarşılıqlı mübadiləyə müsbət təsir göstərdi. Həmçinin qarşılıqlı əmtəə dövriyyəsinin genişləndirilməsində ticarət sərgilərinin təşkili mühüm rol oynadı. Tehran ilə bərpa olunmuş əlaqələr Əfqanıstana imkan verdi ki, onun idxal-ixrac ticarəti üçün İranın Çabahar limanından istifadə etsin və bu cəhətdən Pakistanın Karaçi limanından Kabulun asılılığını azaltsın. Məhz qarşılıqlı ticarət və tranzit haqqında əldə olunmuş saziş Çabahar azad ticarət zonasının yaranmasına gətirib çıxardı.

Müqayisəli təhlil göstərdi ki, İranın Əfqanıstana ixrac etdiyi məhsullar sırasında əsas yeri ərzaq və sənaye malları, məişət texnikası, metal prokat, avtotraktor, o cümlədən yol tikinti texnikası, motosikletlər, hazır paltarlar,

parçalar, pambıq və yarımyun saplar, yuyucu vasitələr, dərman preparatları, yanacaq və xüsusi neft məhsulları, o cümlədən neftdən bitum və tikinti materialları tutur. Digər tərəfdən, Əfqanıstandan İrana ixrac edilən mallar sırasında isə yalnız metal məmulatları, avtomobillər üçün ehtiyat hissələri, xarici istehsala malik antibiotiklər, toxuculuq sənayesi üçün xammal və meyvə qurusu vardı. Burada eyni zamanda iki ölkə arasında ticarət əlaqələrinə mane olan neqativ hallar da təhlil olunur. Bu sahədə narkotik maddələr qaçaqmalçılığının genişlənməsi ciddi vurğulanır.

Ümumiyyətlə, ticarət-iqtisadi əlaqələrin normal məcrada inkişaf etdirilməsi Əfqanıstanda bərpa prosesini sürətləndirməklə yanaşı, əhalinin iqtisadi durumunu, rifah halını yaxşılaşdırdı, bir sıra iqtisadi infrastrukturların fəaliyyəti üçün geniş imkanlar açdı, ikitərəfli münasibətlərin digər sahələrinin də normal məcraya düşməsinə münbit şərait yaratdı.

Dissertasiyanın III fəsli **“ İran-Əfqanıstan mədəni əlaqələri”** adlanır. Bu fəslin “Elm və təhsil sahəsində əlaqələrin inkişafı” adlanan birinci yarımfəslində İran ilə Əfqanıstan arasında elm və təhsil sahələrində əlaqələrin inkişafında mühüm rol oynayan bir sıra amillər təhlil olunur, bunların sırasında dil, din, etnik, coğrafi və digər amillər xüsusi vurğulanır. Fars dili və onun hər iki ölkədə geniş yayılması Kabil ilə Tehran arasında mədəni əlaqələri daha da sıxlaşdıran mühüm cəhətdir.

Bu yarımfəsildə iki ölkə arasında təhsil sahəsində əlaqələri zəruri edən bir sıra amillər və şərtlər sadalanır və qeyd olunur ki, dini dəyərlər baxımından hər iki xalqın bir-biri ilə tarixən yaxın olması, hər iki ölkədə yeni siyasi sistemlərin bərqərar olması, uzun illərdən bəri xarici hərbi müdaxilə və təcavüz şəraitində yaşayan, iqtisadiyyatı və təhsil obyektləri dağıdılmış Əfqanıstanın milli kadr hazırlığına böyük ehtiyac duyması, İranın təhsil sahəsində qonşu Əfqanıstana hərtərəfli yardım etmək səyləri iki ölkənin təhsil və milli kadr hazırlığı sahəsində əməkdaşlığını zəruri edirdi. Təhsil sahəsində əlaqələr dünyəvi və hər iki ölkənin müsəlman dövlət sistemindən irəli gələn dini təhsil sistemləri şəbəkəsini əhatə edir. Tehran həmçinin Əfqanıstan ali təhsil müəssisələrinin tələbələri üçün 2007-ci ildə İran universitetlərində 50 yer ayırmışdı

Tədqiqi olunan dövrdə İran tərəfi Əfqanıstanda təhsil strukturlarının və obyektlərinin bərpasında fəal iştirak edir. Təhlil göstərir ki, bu proses 2001-ci ildən etibarən daha intensiv xarakter kəsb etmişdir. İran inşa etdiyi məktəbləri eyni zamanda dərslik və dərs vəsaitləri ilə də təmin edirdi. Ancaq amerika hərbi hakimiyyətinin təsiri altında demək olar ki, bütün

dərsliklər müsadirə olunaraq Pakistanda nəşr edilmiş dərsliklərlə əvəz olunmuşdu.

İran tərəfi Əfqanıstan universitetlərində fars dili və ədəbiyyatı mərkəzləri, islam tədqiqatları mərkəzləri yaratdı. Elmi kadrların mübadiləsi də həyata keçirildi. Ali təhsil sahəsində əlaqələr 2003-cü ildən etibarən daha sıx xarakter kəsb etdi. Hər iki ölkənin təhsin nazirlikləri arasında razılığa əsasən ali təhsil ocaqları arasında əlaqələr quruldu. Əfqanıstanın bir sıra universitetləri kitabların və digər tədris materiallarının çatışmazlığı ilə üzləşirlər. Məktəblərdə görkəmli əfqan müəlliflərinin olduqca az sayda standart versiyaları öz əksini tapmış dərs vəsaitləri mövcuddur. Əfqan müəllifləri tərəfindən yazılmış 11 min nüsxə kitabın nəşr edilməsi haqqında İran hökumətinin planları uğurlu olub. Bu kitablar Əfqanıstanın 36 dövlət universitetində və 100-dən çox özəl universitetində yayılmışdı. Əfqanıstanda təbiət elmləri üzrə təhsilin vəziyyəti ciddi əhəmiyyət kəsb etmişdi. İran tərəfi fəlsəfə, sosial və riyaziyyat elmləri sahələrində də təqaüdlər verir. Tehranın təmənnasız yardımları bütün ölkə üzrə universitetlərdə təhsilin səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərmişdir.

Əfqanıstanın bir sıra müəllim və tələbələri İranın müxtəlif ali təhsil ocaqlarına dəvət alırlar. Hüquqşünaslıq və siyasi elmlər, kənd təsərrüfatı, iqtisadiyyat və şəriət fakültələri üzrə 15 əfqan professoru vaxtilə İran universitetlərində magistr dərəcəsi almışlar. Həmid Karzayın hakimiyyəti illərində Əfqanıstan tələbələri üçün 50 yer ayrılmışdı. İranda ibtidai və orta məktəblərddə 280 min əfqan şagirdi, ali təhsil ocaqlarında isə 11 min əfqan tələbə təhsil almışdı[1] (30). Nanqarhar universitetinin professoru iki ölkə arasında təhsil sahəsində əlaqələri gücləndirməyə çağırmışdır. Əfqanıstanda fəaliyyət göstərən 70 universitetdən 34-ü dövlət universitetidir. Ölkənin akademik bölməsi elmi kitabların, kompüter və müəllimlərin çatışmazlığı da daxil olmaqla çoxsaylı problemlərlə üzləşirlər.

İİR ilə ƏİR arasında mədəni əməkdaşlıq sahəsində elm və təhsilllə yanaşı, müxtəlif sahələrini əhatə edən əlaqələr də mövcud olmuşdur. Bu əlaqələr təbii olaraq bir sıra saziş və protokollarla tənzim olunmuşdur. Onların tam həcmdə həyata keçirilməsi iki ölkə arasındakı münasibətlərdə günün vacib məsələsi olmuşdur. Hər dəfə yüksək səviyyəli ikitərəfli

---

[1] Миронов Л. Война «хороших парней» против «плохих парней» // «Азия и Африка сегодня», 1991, № 1, с. 20-21 и 39.

görüşlər zamanı da mədəniyyət işləri üzrə nazirlərin qarşılıqlı səfərləri zamanı da mədəni əlaqələrin daha da inkişaf etdirilməsi istəkləri vurğulanmışdır. Tədqiq olunan dövrdə, xüsusilə 2001-ci ildən etibarən iki ölkə arasında mədəniyyət nümayəndələrinin qarşılıqlı surətdə müxtəlif tədbirlərdə iştirakı müntəzəm xarakter almışdır.

İki ölkə arasında mədəni əlaqələrin inkişaf etdirilməsində mədəniyyət və incəsənət nümunələrinin, kitab sərgilərinin təşkili də üstün yer tutmuşdur. Bu cür sərgilərin təşkili yeni bilik və məlumatlarla tanış olmaqla yanaşı, oxucu kütləsinin genişlənməsinə də şərait yaradırdı. Bu sərgilər bir qayda olaraq uşaq kitablarından tutmuş sosial elmlər də daxil olmaqla müxtəlif janrlarda minlərlə kitab və dərsliyi əhatə edirdi. Nəzərə almaq lazımdır ki, əfqan oxucuları İran və Pakistanda nəşr edilmiş kitablardan xeyli dərəcədə asılıdır. Bu sərgilərdə roman və nağıllarla yanaşı əsasən psixologiya, tarix, riyaziyyat və din üzrə kitablar da böyük maraq doğururdu. Tədqiq olunan dövrdə Tehran kitab yarmarkalarında Əfqanıstanı Kabul, Qəndəhar, Məzari-Şərif, Herat, Calalabad və Qəznidən gəlmiş onlarla nəşriyyat və kitab mağazası təmsil etmişdir.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan araşdırmalara yekun vurulmuş, qarşılıqlı münasibətlərin müxtəlif sahələrinə dair yekun müddəalar çıxarılmış, ümumiləşdirmələr edilmiş, İran ilə Əfqanıstan arasında münasibətlərin daha da inkişaf etdirilməsinə dair təkliflər irəli sürülmüşdür.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. İranda islam inqilabının qələbəsindən sonra Əfqanıstan ilə münasibətlərin xarakteri // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2015, № 1, s.152-157.

2. İran-Əfqanıstan münasibətləri (1979-1989-cu illər) // Tarix və onun problemləri. Bakı, 2015, № 3, s.207-211.

3. Основные особенности ирано-афганских отношений (1979-1989-е годы) // Hileya, naukovyy visnik zbirnyk naukovykh prats, Vypusk 106 (№3), Kyyiv, 2016, s.136-138.

4. Müasir mərhələdə İran-Əfqanıstan ticarət əlaqələrinin inkişafı // Tarix və onun problemləri. Bakı, 2016, № 1, s. 228-232.

5. 1980-ci illərdə İran və Əfqanıstan arasında gərginliyin artmasına təsir göstərən amillər // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2016, № 1, s.175-181.

6. Təhsil sahəsində İran-Əfqanıstan əlaqələri (1979-2010-cu illər) / "Urbanizasiyalı sənayeləşmə şəraitində mədəni irsin və biomüxtəlifliyin qorunması" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Gəncə, Azərbaycan Texnologiya Universiteti, 2017, s. 219-220.

7. Основные аспекты экономических отношений между Ираном и Афганистаном (1979-2010 гг.) / Научные исследования в сфере гуманитарных наук: открытия XXI века материалы V Международной научно-практической конференции 18-19 мая 2017 года. Пятигорск, 2017, с.122-126.

**Азиззаде Г.Х**

# ИРАНО-АФГАНСКИЕ ОТНОШЕНИЯ (1979-2010 гг.)

## РЕЗЮМЕ

Диссертационная работа посвящена проблеме ирано-афганских отношений в 1979-2010 гг. Данная тема впервые в азербайджанской историографии была исследована на основе фактов и в виде комплексного подхода.

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы. Первая глава называется "Развитие ирано-афганских политических связей". В этой главе даётся анализ политических связей между двумя государствами. Следует отметить, что после победы Исламской революции в Иране в 1979 году, новое руководство Ирана определила принципы нового внешнеполитического курса. Эта линия была основана на исламских ценностях. С самого начала внешняя политика ИРИ по отношению к Афганистану была определена аятоллой Хомейни. После его смерти этот курс определил аятолла Али Хаменеи. Начиная с 2003 года, ирано-афганское отношение стало развиваться в позитивном русле. Несмотря на это, присутствие иностранных войск в Афганистане является одним из факторов, которое отрицательно повлияло на эти отношения.

Во второй главе диссертации анализируются экономические и торговые отношения между двумя странами, а также экономические интересы Ирана в соседнем Афганистане. В то же время Иран является одним из основных поставщиков энергии Афганистана. Также отмечается роль транзитной торговли между двумя странами.

В третьей главе анализируются культурные отношения между обоими государствами. Иран всегда выражал свою готовность к сотрудничеству с Афганистаном в области культуры. Ряд факторов играли важную роль в развитии культурных связей. Среди них язык,

религия, экономическая принадлежность, географическое положение и др.

В заключении подводится итог, проведенной исследовательской работе, делаются выводы по взаимным политическим, экономическим, торговым и культурным отношениям между двумя государствами.

**Azizzade K.H.**

## İRAN-AFGHAN RELATİONS (1979-2010 yy.)

### SUMMARY

The thesis is devoted to the problem of Iranian-Afghan relations in 1979-2010. This subject is the first studied in Azerbaijani historiography, which was investigated based on facts and in the form of a complex approach.

The thesis consists from introduction, three chapters, conclusion and list of used literature. The first chapter is called "The development of Iranian-Afghan political ties". This chapter provides an analysis of the political relations between two states. After the victory of the Islamic revolution in Iran in 1979, the new leadership of Iran determined new principles in foreign policy. This line was based on Islamic values. At first, Ayatollah Khomeini defined Iran’s foreign policy about Afghanistan. After his death, Ayatollah Ali Khamenei determined this course. Beginning in 2003, the Iranian-Afghan relation began to develop in a positive direction. Despite this, the deploying of foreign troops in Afghanistan negatively affected on these relations.

In the second chapter was analyzed the economic and trade relations between these two countries, as well as the economic interests of Iran in neighboring Afghanistan. At the same time, Iran is one of the main energy supplier to Afghanistan. The role of transit trade between two countries is also noted.

In the third chapter, author said about cultural relations between these countries. Iran has always expressed its willingness to cooperate with Afghanistan in the field of culture. A number of factors played an important role in the development of cultural ties. Among them, language, religion, economic affiliation, geographical location, etc.

In the conclusion summarizes the results of dissertation, on the mutual political, economic, commercial and cultural relations between two states.

Kağız formatı 60x84, 1/16

Fiziki çap vərəqi 1,9

Tirajı 100 nüsxə

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ГАДИР ХАФИЗ оглы АЗИЗЗАДЕ**

# ИРАНО-АФГАНСКИЕ ОТНОШЕНИЯ (1979-2010 гг.)

**Специальность: 5502.01 – Всеобщая история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени
доктора философии по истории**

**БАКУ – 2017**